

# Gülhüseyn KAZIMLI

Amansız ölüm qələm yoldaşımız Gülhüseyn Kazımlını aramızdan apardı.

Gülhüseyn Mərdan oğlu Kazımlı 1950-ci ildə Cəbrayıl rayonunun Kavdar kəndində anadan olub. 1966-cı ildə Cəbrayılda orta məktəbi bitirərək "May" kolxozunda əmək fəaliyyətinə başlayıb.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Ali Partiya Məktəbi, Sov.İKP MK yanında İctimai Elmlər Akademiyası və Bakı Biznes Universitetində təhsil alıb. 1971-1972-ci illərdə Azərbaycan Dövlət Elmi Ateizm Muzeyində, 1973-cü ildən 1981-ci ilə kimi Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, 1983-1987-ci illərdə Azərbaycan KP Kirov Rayon Partiya Komitəsində işləmişdir. Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasında namizədlik dissertasiyası müdafiə edərək 1990-cı ildə təyinatla Bakıya qayıdıb. 1991-ci ilə kimi Azərbaycan KP MK-nın sərəncamında olmuşdur. 1991-1992-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Nəzarət İnspeksiyasının Xaçmaz-Dəvəçi rayonları üzrə zona inspektoru vəzifəsinə təyin edilmişdir. 1995-ci ildən 2005-ci ilədək Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin ümumi şöbəsində protokol sektorunun redaktə qrupunun rəhbəri olub. 2005-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Mərkəzi Aparatının rəhbəri vəzifəsinə təyin edilmiş və xidmət ləğv olunan müddətə kimi burada çalışmışdır. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin orqanı olan "Torpaq" qəzetinin baş redaktoru olmuşdur. Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının işçi qrupunun üzvü idi.

"Vətən sevgisi", "Yollarda ömür", "Mənə inan", "İnsanın dərki", "Ümid yeri", "Heydər Əliyevin yadigarları" kimi kitabların müəllifidir. Şeirlərinə Azərbaycanın məşhur bəstəkarları tərəfindən 30-dan çox mahnılar bəstələnmişdir. Azərbaycan muğam tarixinə həsr olunmuş iyirmi kitabı, bir monoqrafiyası nəşr edilib. Son illər Beynəlxalq Muğam Mərkəzinin "Unudulmayanlar" və "Dəyirmi masa" layihələrinin koordinatoru kimi görkəmli muğam korifeylərinin həyat və fəaliyyəti haqqında elmi-tədqiqat işləri aparırdı. Onun tədqiqatları əsasında XIX əsr Azərbaycan muğam ifaçılığının ən parlaq nümayəndəsi, böyük muğam ustası, ömrünün 35 ilini Tiflisdə Azərbaycan muğamının, xalq mahnılarının təbliğinə həsr etmiş Əbdülbaqı Zülalov (Bülbülcan) haqqında elmi-publisistik "Bülbülcan" kitabı ərsəyə gəlib. Xalq artistləri Şövkət Ələkbərovanın, Həqiqət Rzayevanın, Yaqub Məmmədovun, tarzən Əliağa Quliyevin, Allahyar Cavanşirovun, əfsanəvi qarmonçalan Əhəd Əliyevin (Kor Əhəd), Teyyub Dəmirovun yaradıcılıqlarına həsr edilmiş yubiley gecələri keçirilmişdir. 2022-ci ildə böyük Azərbaycan xanəndəsi Məşədi Məmməd Fərzəliyevin 150 illik yubileyi münasibətilə "Salam, Məşədi" kitabı çap edilmişdir. Son kitablarından biri - "İnsanın dərki" fəlsəfi-psixoloji məsələlərə həsr olunmuşdur.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Gülhüseyn Kazımlının işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah Rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**